"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 iyun 2021-ci il №44 (2552) https://mod.gov.az Qiyməti 30 qəpik

Vətən hər zaman igid oğulları ilə güclü olur...

Qızmar iyun günlərində Vətənimizin dilbər guşələrindən birindəyəm. Günəş şüaları ətrafa hakim olsa da, qəlbimdəki hərarətin qarşısında acizdi. Bu enerjini görüşünə tələsdiyim, Vətənin mərd, fədakar, qəhrəman oğullarından - qalib Azərbaycan əsgərlərindən alıram. Səfərimiz torpaq sevgisinin hərarətini, torpağın ürək döyüntüsünü daha çox duyduğumuz "N" hərbi hissəsinədi. Dağlara doğru irəlilədikcə hava dəyişir. Dolanbac yollar ilan kimi qıvrılır. Ətrafa nəzər yetirdikcə adama elə gəlir ki, geridə qalan evlər, yaşayış məskənləri bir ovuca yerləşəcək qədər kiçilib. Çox əsrarəngiz mənzərədir. Yol boyu hər tərəfdə əkin tarlaları, otlaqlar, biçənəklər bir-birini əvəz edir. Burada təbiətin bütün rənglərini görmək olur. Təbiətin gözəlliklərini seyr etdikcə vaxtın necə keçdiyini hiss etmir insan. Bu da səngər... Bu da düşmən çəpəri, isti-soyuq demədən sərhədinin keşiyində duran rəşadətli Azərbaycan Ordusunun əsgəri...

Şahidi olduğumuz Vətən müharibəsindən artıq bir neçə ay ötüb. Vətənimizin mərd oğulları həmin döyüşlərdə təkcə Azərbaycan cəmiyyətinə deyil, dünya ictimaiyyətinə bütün aydınlığıyla sübut etdi ki, torpaqlarımızın hər qarışı uğrunda can əsirgəməyən mübariz ruhlu bir nəsil formalaşıb. Döyüşlərdən sonra ezamiyyətdə olduğum hərbi hissələrdə söhbətləşdiyim bütün əsgərlər qalib orduda xidmət etməyin, xalqımıza qələbə sevinci yaşatmağın qürurunu yaşadığını bildirirlər. Düşmənə gücümüzü sübut edən Vətən müharibəsi bir həqiqəti aydınlaşdırdı: Azərbaycanın qarşıya qoyulan istənilən tapşırığı uğurla yerinə yetirməyə qadir, müasir silah və texnikadan peşəkarlıqla istifadə etməyi bacaran, ən əsası Vətən sevgisilə alışıb-yanan gənclərdən ibarət güclü ordusu var.

Bizi müşayiət edən zabit Rüfət Qasımov bildirir ki, şəxsi heyətin xidməti günün nizam qaydalarına uyğun olaraq aparılır. "Düşmənlə üzbəüz dayanmağımız əsgərlərimizin xidməti üçün heç bir maneə törətmir. Hərbi hissəmizdə xidmətin düzgün təşkil olunması üçün hər cür şərait yaradılıb. Yeni xidmətə başlayan əsgərlərimizin də mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir. Şəxsi heyətlə praktiki təlimlərin keçirilməsinə üstünlük veririk. Asudə vaxtda əsgərlərə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizdən söhbət edirik. Hər birimiz onların göstərdiyi qəhrəmanlıqlarla yaxından tanış olmalıyıq. Unutmamalıyıq ki, bu gün onların qanı bahasına torpaqlarımız düşmən işğalından azad olunub. İllərdir həsrətində olduğumuz doğma torpaqlarımızda yenidən şanlı Azərbaycan bayrağının dalğalanması üçün igid oğullarımız canlarını fəda ediblər".

(Ardı 4-cü səhifədə)

Qələbə ürəkdə qazanılır
3-cü səhifədə



Vətən müharibəsi: Azərbaycan xalqının qalibiyyət yolu
4-cü səhifədə



"Şuşa işğaldan azad olunanda çox sevindim"
6-cı səhifədə

"Qələbəmizi şəhid və qazilərimizə həsr edirik"
7-ci səhifədə

Azərbaycan və Pakistan HDQ komandanları arasında görüş keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı kontr-admiral Sübhan Bəkirovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasında səfərdədir.

Pakistan HDQ komandanı admiral Məhəmməd Amcad Xan Niyazi ilə Azərbaycan HDQ komandanı kontr-admiral Sübhan Bəkirov arasında keçirilən görüşdə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Admiral Məhəmməd Amcad Xan Niyazi Vətən müharibəsində qazanılan qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Geniş tərkibdə davam edən görüşdə, Pakistan HDQ-nin strukturu, əməliyyat imkanları, regional və daxili təhlükəsizlik mühiti, eləcə də qarşıda duran tapşırıqlar barədə brifinq təqdim olunub, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Müdafiə Nazirliyinin məlumatı

Aparılmış əlavə araşdırmalar nəticəsində məlum olub ki, 2021-ci il iyunun 8-də Ermənistan-Azərbaycan sərhədinin Laçın rayonu ərazisində saxlanmış Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu Artur Kartanyan Azərbaycan ərazisinə təxribat-diversiya məqsədilə daxil olmayıb. Onun yolunu azaraq Azərbaycan sərhədini keçməsi müəyyən olunub.

A.Kartanyanın ilkin dindirmə əsnasında özünü şübhəli apardığına və qeyri-dəqiq cavab verdiyinə görə onun Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun hərbi qulluqçusu olması barədə şübhələr yaranıb.

Qeyd olunanları nəzərə alaraq, A.Kartanyan qarşı tərəfə geri təhvil verilmişdir.

Bununla, Azərbaycan tərəfinin humanist davranışını növbəti dəfə nümayiş etdirərək ölkəmizə qarşı cinayət törətməmiş şəxsin geri qaytarılmasını təmin edirik.

Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başlayıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən iyunun 7-də növbəti komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komanda-qərargah təliminə cəlb olunan birləşmə və hissələr düşmənin güclü radioelektron vasitələrinin təsiri altında aidiyyəti üzrə müxtəlif dərəcəli döyüşə hazırolma səviyyəsinə gətirilərək ehtiyat təyinat rayonlarına çıxarılıb və idarəetmə orqanlarının ərazidə açılması təmin edilib.

Qoşunların gizli və operativ fəaliyyətini təmin etmək üçün mexanikləşdirilmiş, piyada və xüsusi təyinatlı bölmələrin digər qoşun növü bölmələri ilə qarşılıqlı fəaliyyətinə xüsusi diqqət yetirilib.

Təlim iyunun 12-dək davam edəcək.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının ikinci rəisi "ASAN xidmət"də

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının ikinci rəisi, general-polkovnik, eyni zamanda, Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən fondların idarə heyətlərinin sədri Səlcuk Bayrakdaroğlu "ASAN xidmət" mərkəzinin, eləcə də "YAŞAT" Fondunun fəaliyyəti ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonağı salamlayan dövlət agentliyinin sədri Ülvi Mehdiyev "ASAN xidmət"in yaradılması məqsədi və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub.

Bildirilib ki, bu günədək 44 milyondan çox vətəndaş müraciəti qeydə alınıb. "ASAN xidmət"in 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatına, 2019-cu ildə isə BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülməsi qonaqların diqqətinə çatdırılıb.

Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "YAŞAT" Fondunun yaradılması, məqsədi və görülən işlər barədə qonağı məlumatlandırıb. Vurğulanıb ki, Fondun fəaliyyətində şəhid ailələrinə və qazilərimizə yüksək formada xidmət göstərmək, onların cəmiyyətimizdə qazandıqları nüfuzu ən yuxarı təbəqədə qorumaq əsas hədəflərdir.

Bundan əlavə, "YAŞAT" Fondu ilə Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən fondlar arasında davam edən uğurlu əməkdaşlıqdan bəhs olunub.

Səlcuk Bayrakdaroğlu "ASAN xidmət" və "YAŞAT" Fondunun fəaliyyətini yüksək qiymətləndirib və müvafiq istiqamətlər üzrə həyata keçirilən əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Sonda xatirə hədiyyələri təqdim olunub.

"Anatolian Phoenix-2021" təlimi sona çatıb

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada keçirilən "Anatolian Phoenix-2021" beynəlxalq axtarış-xilasetmə təlimi sona çatıb.

Qeyd edək ki, Azərbaycan Ordusu təlimdə Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları ilə təmsil olunurdu.

Naxçıvan Qarnizonu Qoşunlarında təlim-metodiki toplantı keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən, tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodiki toplantı keçirilib. Toplantıda əsas diqqət Naxçıvan Qarnizonunun birləşmə və hissələrinin bölmələrində döyüş və döyüş hazırlığı üzrə məşğələ və təlimlərin vahid metodika üzrə keçirilməsində zabitlərin metodik hazırlıqlarının yüksəldilməsinə yönəldilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplantı zamanı bölük və tabor taktiki qruplarının ərazidə fəaliyyəti, səfər, döyüşqabağı və döyüş düzülüşlərində hərəkəti, irəliləməsi və açılması mövzusunda müxtəlif variantlarda göstərici məşğələlər keçirilib.

Nümayiş, göstərici, taktiki-sıra və taktiki təlimlərdə komandirlərin və qərargahların bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə praktiki fəaliyyətlərə daha çox diqqət ayrılıb.

Toplantının sonunda zabitlərin hərbi topoqrafiya, taktiki və fiziki hazırlıq üzrə bilik və bacarıq səviyyələri yoxlanılıb.

Toplantının yekununda qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq hər bir zabitə fərdi tapşırıqlar və növbəti məşğələlərə hazırlıq üzrə göstərişlər verilib.

İctimai-siyasi hazırlıq

Qələbə ürəkdə qazanılır

Müasir dövrün gəncləri iftixar hissi keçirməlidirlər ki, onlar güclü Azərbaycan Ordusunda xidmət edir, qalib ordunun sıralarında xidmət etməyin şərəfini yaşayırlar. Ümummilli Liderimiz və müasir ordumuzun qurucusu Heydər Əliyevin bir zamanlar qeyd etdiyi kimi: "Bu günümüzün gəncləri özlərini xoşbəxt sanmalıdır ki, onlara doğma Vətənimizin ordusunda xidmət etmək nəsib olub". Bu xoşbəxtliyin fərqinə varan gənclər də öz üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirərək torpaqlarımızın işğaldan azad edilməsində fəal iştirak etdilər.

Cəmiyyətimizin aparıcı qüvvəsi olan gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün təşkil edilməsi tarixi zəfərin qazanılmasında mühüm rol oynayan əsas məsələdir. Gələcəyin əsgərlərinin vətənpərvər ruhda böyüməsi, bu istiqamətdə aparılan işlər ailənin, məktəbin və ictimai qurumların ümdə vəzifəsidir.

Vətənpərvər hisslərlə böyüyən və ordumuzun sayca böyük əksəriyyətini təşkil edən gənclərimiz torpaqlarımız işğalda olduğu müddətdə təlimlərdə tər tökərək hərbi vərdişlərə yiyələndi və 2016-cı ilin Aprel döyüşləri ilə bütün dünyaya işğalla barışmayacağı mesajını verdi. Nəticədə Vətən müharibəsi ilə öz tarixi torpaqlarını bərpa etdi.

Bu gün fərəh hissi ilə deyirik ki, Azərbaycan gəncliyi, əsgər və zabitləri mübarizdir, mərddir, cəsurdur. Bu mərdlik, cəsarət torpaqlarımızın işğalda qalması ilə barışmayan xalqın haqq səsidir. Axı uzun illər erməni faşistləri ərazi bütövlüyümüzə təcavüz edib və bu səbəbdən bir milyon soydaşımız el-obasından didərgin düşüb. Uzun illər erməni faşistlərinin törətdiyi vəhşiliklərin ağrı-acısını çəkən xalq da bu qisasın yerdə qalmasını istəmirdi. Ərazi bütövlüyünün bərpa olunması üçün ya müharibə aparılmalı, ya da münaqişə siyasi yolla həll olunmalı idi. Təəssüflər olsun ki, atəşkəs imzalandığı dövrdən bu yana konflikt həllini tapmadı. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra olunmadı. Nəticədə Azərbaycan əsgəri tarixi ədaləti bərpa edərək Qarabağ məsələsini kökündən həll etdi.

Prezident İlham Əliyevin Bakıda Hərbi Qənimətlər Parkının açılışından sonra hərbi qulluqçularla görüşündə söylədiyi fikirlər Azərbaycan əsgərinin qəhrəmanlığının qiyməti idi: "Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs, qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar".

Bu gün də, gələcəkdə də keçirilən ictimai-siyasi hazırlıq dərslərinin əsas mövzusu tarixi qələbəmiz, bu qələbənin məğrur sərkərdəsi olan Ali Baş Komandanımız olaraq qalacaq. "N" hərbi hissəsində ictimai-siyasi hazırlıq dərsi keçirilirdi. Baş leytenant İsmayıl Hüseynovla həmsöhbət olmaq imkanı qazandıq. Məşğələ rəhbəri dərslərin mövzusundan əlavə olaraq Azərbaycan əsgərinin tarixi qələbəsindən də söhbət açdığını bildirdi.

"Müharibə mövzusu hər birimizin diqqət mərkəzindədir. Çünki sıralarımızda xidmət edən hərbi qulluqçuların böyük bir qismi döyüşlərin iştirakçısı olub. Bu səbəbdən də hər dərsdə zəfərimizdən, şəhid və qazilərimizdən söhbət açırıq. Təbii ki, şəhidlik ən uca zirvədir. Müharibə dövründə şəhid verdiyimizi, nə qədər itkilərlə üzləşdiyimizi düşünəndə, yeganə təsəllimiz ondan ibarətdir ki, qisas qiyamətə qalmadı və Qarabağımız azaddır. Azərbaycan öz müstəqil dövlətçiliyini daha da möhkəmləndirəcək, iqtisadiyyatımız əvvəlkindən çox inkişaf edəcək və regionda güclü hərbi qüvvə olan ordumuz yüksəlişinin ən uca zirvəsinə qalxacaq", - deyə zabit sözünü bitirdi.

Zabitlə söhbətimizin gedişində bir anlıq düşünürəm: "Azərbaycan əsgərinin qələbəsinin təminatçısı Vətən sevgisi və bu sevgini ilahiləşdirən yüksək mənəvi-psixoloji durumdur". İllərlə keçirilən təlim və dərslərdə əsgərlərin vətənpərvərlik tərbiyəsinə və milli-mənəvi dəyərlərinin möhkəmlənməsinə ciddi fikir verilib. Bu ciddiyyət öz əksini döyüş meydanında tapıb.

Dərs prosesində fəal iştirak edən əsgərlərlə də həmsöhbət olmağı, onların fikrini öyrənməyi özümə borc bildim.

Əsgər Ramil Məhərrəmov da Vətən müharibəsində iştirak edib. Ramil dedi ki, döyüşdə silah-texnikanı hərəkətə gətirən də məhz ürəkdəki Vətən sevgisidir. "Vətənpərvərlik hissi insan özünü dərk etdiyi andan ailədə yaranır, məktəbdə inkişaf edir və ordu sıralarında tamamilə formalaşır. Çünki yeniyetmə əksər vaxtını məktəbdə və həmyaşıdları arasında keçirir. Müəllimlərin aşıladığı vətənpərvərlik hissi inkişaf edir. Məktəbdə oxuyan şagirdlərə "böyüyəndə kim olacaqsan?", - sualını verəndə əksəriyyəti "əsgər olacağam" cavabını verir. İllər keçir, əsgər olmaq arzusu ilə böyüyən şagird hərbi mundir geyinir. Komandirlərin dərslərdə aşıladığı vətənpərvərlik hissi tamamilə formalaşmanın son mərhələsinə çatır. Mən və mənim timsalımda bu hisslərlə böyüyən gənclik, hərbi xidmətdə Vətən sevgisinin nə olduğunu dərk edərək torpaqlarımızın azadlığı uğrunda müharibəyə yolландıq. Canımız bahasına torpaqlarımızı işğaldan azad etdik", - əsgər Ramil Məhərrəmov bildirdi.

Əsgərlər Toğrul Rəhmanov, Rabil Ağayev, Mirzəağa Məmmədov, Amil Abumüəlimov əsgər yoldaşlarının fikrinə şərik olaraq bildirdilər ki, qələbə nəinki döyüş meydanında, həmçinin ürəkdə qazanılır.

Əsgərlərimizin əvvəl ürəkdə, sonra döyüş meydanında qazandıqları tarixi qələbə təkcə doğmalarına deyil, təlim-tərbiyə aldığı müəllimlərinə, onları döyüşə kökləyən komandirlərinə və nəhayət, bütöv Azərbaycan xalqına başucalığı gətirdi. Hələ bundan sonra Azərbaycan əsgərinin qəhrəmanlıq salnaməsi haqqında filmlər çəkiləcək, dastanlar yazılacaq, nəğmələr qoşulacaqdır.

Kapitan
Ceyhun CƏFƏRLİ
"Azərbaycan Ordusu"

Ordenli igidlərimiz

Vətən müharibəsi: Azərbaycan xalqının qalibiyyət yolu

Qəhrəmanlar yurdu, igidlər məskəni Azərbaycan tarix boyu ərənləri, ər oğulları ilə seçilib. Bu yurdun igid oğulları hər zaman Vətənin başı üzərini qara buludlar alanda silaha sarılaraq düşmənə qarşı böyük mərdliklə vuruşublar. Tariximizin elə bir səhifəsi yoxdur ki, orada Vətən övladlarının böyük qəhrəmanlıq salnamələrinin şahidi olmayasan. 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycanda torpaq hamı üçün müqəddəsdir və bu müqəddəsliyin uğrunda canından keçməyə hazır olan oğul və qızlarımız çoxdur.

Qəhrəmanlar üçün dünyanın bir qapısı olur. Onlar dünyaya gəlir, ancaq getmirlər. Qəhrəmanlıq elə bir yüksək zirvədir ki, o zirvəyə ucalmaq üçün gərək bəşəriyyətin, tarixin və ən əsası məxsus olduğun xalqın, millətin sınağından mərdanəliklə çıxasan. Bu gün hamı kimi dünyaya gələn körpənin sabah igid olacağını heç kim bilmir. Qəhrəmanı mühit yetişdirir, zaman ərsəyə gətirir, xalq yaşadır, sevir və əfsanələşdirir. Polkovnik Ümüdvar Quliyev də belə qəhrəmanlardandır.

İmişli rayonunun Oruclu kəndində anadan olan polkovnik Ümüdvar Quliyev 2001-ci ildə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq Məktəbini, 2016-cı ildə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Vətən müharibəsinin iştirakçısı olan zabit Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunmasında qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsi nəzərə alınaraq "Qarabağ" ordeni, "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

"27 sentyabr 2020-ci il tarixindən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında növbəti erməni təxribatına son qoymaq məqsədilə aparılan, 44 gündən sonra noyabrın 10-da zəfərlə başa çatan Vətən müharibəsi nəinki vətəndaşlarımızın, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ölkəmizin böyük siyasətinin ümdə tərkib hissəsi olan dövlətçiliyi qorumaq, ərazi bütövlüyünü təmin etmək, milli birliyi möhkəmləndirmək işinə dönməz sadiqliyinin sınağı oldu", - deyə zabit söhbətə başladı. - Ölkədəki və onun hüdudlarından uzaqlardakı böyük və sarsılmaz gücümüzü real təcrübədə gördük. Yaddaşımızda babalarımızın "El gücü, sel gücü", "El bir olsa dağ oynadar yerindən" deyimləri yeni, əməli fəaliyyət müstəvisində təzələndi, azadlıq müharibəmiz xalqımızın min illərdən süzülüb gələn təmiz milli-mənəvi dəyərlərinin, azadlıq uğrunda mübarizə ruhunun imtahanı, onun dəyanətliliyinin və mətinliyinin məhək daşı oldu. Biz həmişəlik yadda saxlamalıyıq ki, bu qələbəmizlə Azərbaycan tarixində yeni mərhələnin başlanmasının şahidi və xoşbəxt iştirakçısıyıq. Bu yeni tariximizi dərin zəkası və qüvvətli yumruğu ilə yazan, xalqımızın iradəsini savaş və siyasət meydanında gerçəkləşdirən, tarixi yaddaşımıza həkk edən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə Vətən müharibəsini qələbəyə çatdıran qalib Azərbaycan Ordusudur.

Zabit onu da qeyd etdi ki, Vətən müharibəsi insanların illər boyu vərdiş etdikləri həyat fəlsəfəsini dəyişdi, ordu və bayraq sevgisini həmişəlik könüllərə və zehinlərə yerləşdirdi, hər kəsə yeni həyat gücü və enerjisi bəxş etdi. "Bu gün vətəndaşlarımızda sonsuz bir torpaq sevgisi var. Vətən müharibəsi həmvətənlərimizin qəlbinin, ruhunun dərinliklərində öz oyanış vaxtını gözləyən enerjiyə yol açdı, adi həyatda fərqinə varmadığımız, lakin Vətən torpaqları uğrunda ölüm-dirim mübarizəsində bir anda baş qaldıran mübarizlik və qəhrəmanlıq xüsusiyyətləri hər kəsə siraət etdi".

"27 sentyabr 2020-ci il tarixi həm də müsbət anlamda xalqımızın təfəkküründə, düşüncəsində, əməli fəaliyyətində bir qırılma nöqtəsi oldu", - deyə zabit söhbətinə davam etdi. - Azərbaycan Ordusunun ən modern silah və texniki vasitələrlə təchiz olunması, illər boyu torpaqlarımızı düşməndən azad etmək istəyi, Ali Baş Komandanımızın strateji ustalıqla rəhbərliyi sayəsində Vətən müharibəsi zəfərlə başa çatdı. Aprel, Günnüt zəfərlərindən sonra qazanılan qələbə Azərbaycan xalqının yeni qalibiyyət yolunu müəyyənləşdirdi. Bizim də bir vətəndaş, bir hərbi qulluqçu kimi borcumuz bu yolun şərəfli yolçusu olmaqdır.

Mayor
Məhəmməd ƏLİYEV
"Azərbaycan Ordusu"

Vətən hər zaman igid oğulları ilə güclü olur...

(Əvvəli 1-ci səhifədə)

Döyüş mövqeyində bizi qarşılayan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Cavid Ələkbərov vəziyyətin sabit oluğunu, heç bir problemin olmadığını məruzə edir. "Biz Vətənimizi düşmənlərdən qoruyuruq", - deyə Tovuz rayonundan hərbi xidmətə çağırılan kiçik çavuş Cavid Ələkbərov söhbətə başlayır. - Vətəni qorumaq üçün birinci özünü qorumalısan. Əgər özünü, əsgər yoldaşlarını qoruya bilməsən, onda torpağını necə qoruyarsan? Hər kəsin bildiyi kimi, ötən ilin sentyabrın 27-də düşmənin növbəti təxribatının qarşısını alaraq əks-hücum əməliyyatlarına başladıq. İllərdir həsrətində olduğumuz torpaqlarımızdan düşməni qovaraq çıxartdıq. Bu döyüşlərdə qələbə qazansaq da, mənfur "qonşularımızın" xasiyyətinə bələdik. Düşmən acgöz, yalançı və hiyləgərdir. Bu səbəbdən hər an ayıq-sayıq, diqqətli xidmət aparırıq. Düşmənin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. Müşahidə zamanı aşkar olunmuş ən adi bir hərəkəti belə yuxarı komandanlığa məruzə edirik. Hər gün əsgərlərimizə təlimat keçəndə bunları xatırladırıq. Onlar da unutmurlar ki, arxamızda bizə güvənən ailəmiz, dostlarımız, yaxınlarımız var".

Döyüş növbəsindən qayıdan əsgər Ayxan Cəfərov ilə söhbət etmək imkanı qazanırıq. Ayxan deyir ki, üzərində boy atdığımız, suyunu içdiyimiz, çörəyini yediyimiz, havasını udduğumuz Vətənə övladlıq borcunu şərəf və məsuliyyətlə yerinə yetirmək hər birimizin vətəndaşlıq borcudur. "Bu gün Vətənimizin bacarıqlı əsgəri kimi formalaşdığım üçün öncə vətənpərvər komandirlərimə və aylar, həftələr, günlər ərzində torpaqlarımızın keşiyində çiyin-çiyinə dayandığım silahdaşlarıma borcluyam. Ordu həyatı, sözün həqiqi mənasında, bir kişilik məktəbidir və bu yolda sınaqlarda bərkidiyim üçün özümü xoşbəxt sanıram".

Əsgəri xidmət dövründə gənclərə hərbi biliklərlə yanaşı, bir çox müsbət keyfiyyətlər də aşılanır. Gənclər həm bacarıqlı əsgərlər kimi, həm də cəmiyyətə faydalı vətəndaşlar kimi formalaşırlar. Onlara tapşırılan vəzifələrin əhəmiyyətini dərindən dərk edərək məsuliyyətlə xidmət edirlər. Belə gənclərdən biri əsgər Tural Hüseynov "Rəşadətli ordunun əsgəri olduğuma görə qürurluyam", - deyir. "Səngərdə, torpaqlarımızın müdafiəsində dayanmaqdan isə ikiqat qürurlanıram. Burada torpaqlarımıza keşik çəkirik. Mənim üçün bundan şərəfli və müqəddəs tapşırıq yoxdur. Vətən qoruyucusu olmağın sevincini daim hiss edirəm. Hər an üzərimə düşən vəzifələrin öhdəsindən uğurla gəlməyə çalışıram. Düşmən qarşısında mətin dayanmışıq və onların hər bir hərəkəti tam nəzarətimiz altındadır".

Göyçay rayonundan hərbi xidmətə çağırılan əsgər Vilayət Adıgözəlov deyir ki, xidmət etdiyi müddətdə əsgər kimi üzərinə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışıb. "Xidmətim zamanı komandirlərimdən hərbin bütün sirlərini öyrənməyə çalışmışam. Hərbi xidmət bizdən məsuliyyətli və bacarıqlı olmağımızı tələb edir. Vətən torpaqları bizlərə etibar edilib. Komandirlərimizin və xalqımızın bizə olan etimadını hər zaman doğrultmalıyıq".

Əsgər Rəsul Əsədov yoldaşının sözünü təsdiqləyərək deyir ki, Vətən, hər nəyin bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, ana dediyimiz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, müqəddəs torpaqdır. "Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur. Hələ hərbi xidmətə başlamadığım vaxtlardan torpaqlarımızın işğaldan azad olunacağı günün xidmətim dövrünə təsadüf etməsini arzulayırdım. Çox sevinirəm ki, artıq doğma Qarabağımızda üçrəngli müqəddəs bayrağımız dalğalanır. Vətənə olan borcumu layiqincə ödəyib, ailəmin yanına qalib əsgər kimi dönəcəyimə çox sevinirəm".

Bu yerlərdən, qüdrətli ordumuzun mətin keşikçilərindən ayrılmaq istəmirik. Onlarla söhbətlərimiz xoş ovqat yaradır. Bir daha əmin oluruq ki, torpaqlarımızın müdafiəsi etibarlı əllərdədir. Vətən hər zaman igid oğulları ilə güclü olur... Vətənimizi qoruyan belə oğulların hesabına ərazi bütövlüyümüzə heç bir zərər gələ bilməz. Bu inam hissi ilə onlardan ayrılırıq...

Leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"

“Ayıq ol, ölkənin keşiyini çək!”

Gəncə Qarnizonunda Nizami Gəncəvi ili çərçivəsində tədbir keçirilib

Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açan, insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin yaradıcılığının müstəsna əhəmiyyəti nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilmişdir.

Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissələrində, xüsusi təyinatlı hərbi təhsil ocaqlarında, ideoloji iş və mədəniyyət mərkəzlərində də bununla bağlı silsilə tədbirlər həyata keçirilir. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin həyat və yaradıcılığı, hər bir vətəndaş üçün örnək olan çoxşaxəli irsi şəxsi heyət arasında geniş təbliğ olunur.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Gəncə Qarnizonunda gənc əsgərlər üçün təşkil edilən tədbirə N.Gəncəvinin müəllifi olduğu "Ayıq ol, ölkənin keşiyini çək!" fikrinin ad olaraq verilməsi də təsadüfi deyildir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu barədə danışan layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bildirib ki, Nizami Gəncəvi bu gün də müasirdir. Azərbaycan Ordusunda böyük qüvvə olan gənclərimizin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində, onların milli dəyərlərimizə, ənənələrimizə, mənəvi və iradi keyfiyyətlərə yiyələnməsində ustad sənətkarın yaradıcılığı əvəzolunmaz bir vasitədir.

Nəzərə çatdırılıb ki, dahi Nizaminin ədəbi qəhrəmanları Vətənini, yurdunu sonsuz məhəbbətlə sevir, ağıllı, cəsarətli və hünərlidir, doğma torpağını yadellilərin basqınlarından mərdliklə qorumağa, qılınc alıb, meydanda özünü göstərməyə, "doğma ölkəsinə qol-qanad" verməyə, öz ölkəsinin müstəqilliyini, ərazi bütövlüyünü əbədi və sarsılmaz etməyə, Vətənin azadlığını hər şeydən uca tutmağa qadirdir.

Qeyd olunub ki, hər bir gənc ömründə heç olmasa bir dəfə öz Vətəni uğrunda, torpağı uğrunda qəhrəmanlıq nümunəsi göstərməli, yeri gələrsə, bu amal uğrunda canından, qanından keçməyi bacarmalıdır. Nizami Gəncəvinin cavanlara ünvanladığı bu misralarında deyildiyi kimi:

Cavansan, şir kimi cəsarətin var,
Tacidar olmağa ləyaqətin var.
Ölkəni fitnədən xilas edərək,
Qüdrətini göstər bir dəfə görək.

Tədbirdə Nizami Gəncəvinin vətənpərvərlik ideyalarından bəhs edən Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov 44 günlük Vətən müharibəsi zamanı şəhidlərimizin qanı, ordu ilə xalqın sağlam mənəvi birliyi, həmrəyliyi, Azərbaycan Ordusunun rəşadəti, dövlətimizin başçısının siyasi iradəsi, dünyanı heyrətə gətirən diplomatiyası, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu sayəsində qazanılan möhtəşəm Qələbə münasibətilə tədbir iştirakçılarını bir daha təbrik edib və vətənpərvərlik rəmzinə çevrilən Şeyx Nizaminin də ruhunun bu gün şad olduğunu fəxarət hissi ilə vurğulayıb.

Vətənpərvər alim Nizami yaradıcılığından nümunələr gətirərək gənc əsgərləri, ordumuzun gələcək möhkəm dayaqlarını Vətənimizə layiq cəsur döyüşçü kimi xidmət etməyə, Vətənin, ölkənin keşiyində ayıq-sayıq olmağa çağırıb. "Nizami Gəncəvinin bu misraları qoy hər bir Vətən əsgərinin bələdçisi olsun!" deyib:

"Çalış ki, kirpiyin olsun almaz tək,
Ayıq ol, ölkənin keşiyini çək!"

Gəncə Dövlət Tarix və Mədəniyyət Qoruğunun Nizami Məqbərəsi filialının müdiri Gülnarə İsmayılovanın da çıxışı gənc əsgərlər tərəfindən maraqla qarşılanıb. Oğlunun da əsgər olduğundan böyük qürur duyan Gülnarə ana şəxsi heyəti Nizami Məqbərəsinə ziyarətə dəvət edib və xidmət müddətində onların Nizami kimi dahini bəşər xəzinəsinə bəxş edən Gəncənin tarixinin, dini və mədəni memarlıq abidələrinin daha dərindən öyrənəcəklərinə əminliyini bildirib.

Gəncə Pedaqoji Universitetinin müəllimi, araşdırmaçı və yazar Vüsal Hicran hər bir əsgərə Nizami qəhrəmanları kimi vətənpərvər, əməksevər, ədalətli olmağı Vətəni sevməyi, torpağı sevməyi, çətinliklərdən qorxmamağı, müstəqilliyimizin, ərazi bütövlüyümüzün keşiyində həmişə ayıq-sayıq durmağı, Müzəffər Ali Baş Komandanın əmrlərinə hər an hazır olmağı arzulayıb və qalib Azərbaycan əsgərinə həsr etdiyi yeni şeirini oxuyub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti Azərbaycan bəstəkarlarının Nizami şeirlərinə yazdığı məşhur "Sənsiz", "Sevgili canan", "Gülüm" romanslarını və digər əsərlərini ifa edib, Nizaminin şeirləri səsləndirilib.

Sonda hərbi hissə komandiri təşkilatçılara, qonaqlara, yaradıcı heyətə vətənpərvərlik tədbirinə görə komandanlıq və şəxsi heyət adından minnətdarlıq edib.

Şəhid mayor Namiq Əhmədovun xatirəsinə həsr olunmuş tədbir keçirildi

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarını tanımaq və tanıtdırmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən Tovuz döyüşlərində şəhidlik zirvəsinə ucalan mayor Namiq Əhmədovun xatirəsinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları, şəhidin ailə üzvləri, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə şəhid mayor Namiq Əhmədovun xatirəsinə həsr edilmiş videoçarx təqdim olundu.

Tədbiri giriş nitqi ilə açan Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni işlər üzrə təlimatçısı Gülxar Məmmədova şəhid zabitin həyat və döyüş yolu haqqında geniş məlumat verdi. "Mayor Namiq Əhmədov 1984-cü ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində dünyaya göz açıb. 1991-ci ildə şəhid Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin birinci sinfinə daxil olub. Orta təhsilini başa vurduqdan sonra 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb."

G.Məmmədova, həmçinin şərəfli xidmət yolu keçmiş Namiq Əhmədovun hərb tariximizə qızıl hərflərlə yazılan Aprel döyüşlərində iştirak etdiyini bildirdi. Vurğulandı ki, döyüşlərdə fərqlənməsi və fəallığı yüksək qiymətləndirilərək ona vaxtından əvvəl "mayor" hərbi rütbəsi verilib. Qeyd olundu ki, mayor Namiq Əhmədov ötən il iyulun 13-dən 14-nə keçən gecə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin genişmiqyaslı təxribatının qarşısının alınmasında şərəflə iştirak edərək şəhidlik zirvəsinə yüksəlib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov Vətən torpaqları uğrunda şəhid olanların heç vaxt unudulmayacağını, xatirələrinin xalqımızın yaddaşında əbədi olaraq yaşayacağını qeyd etdi. "Şəhid Namiq Əhmədov dövlətinə, millətinə sadiq bir vətənpərvər insan, təcrübəli zabit, gözəl ailə başçısı idi. Öz peşəkarlığı və sadəliyi ilə tabeliyində xidmət edən şəxsi heyətin rəğbətini qazanmışdı. Vətənimizin ərazi bütövlüyünü hər şeydən üstün tutaraq əbədiyyətə qovuşdu. Lakin Namiq Əhmədovun timsalında torpaqlarımızın azadlığı uğrunda şəhid olanların qanı yerdə qalmadı. Ötən ilin 27 sentyabrında düşmən təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsində onların qisası düşməndən layiqincə alındı. Allahdan bütün şəhidlərimizə rəhmət, ailələrinə səbir arzulayıram".

Digər çıxış edənlər belə əhəmiyyətli tədbirlərin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid olanların heç vaxt unudulmadığını, onların ailə üzvlərinin dövlətimiz tərəfindən daima diqqət və qayğı ilə əhatə olunduqlarını vurğuladılar.

Mayor Namiq Əhmədovun oğlu Məhəmməd atası ilə fəxr etdiyini bildirdi. O, tədbirin təşkilinə görə əməyi olan hər kəsə təşəkkür etdi. Dövlətimiz tərəfindən hər cür qayğı ilə əhatə olunduqlarını dedi.

Sonra Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədova və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında hərbi vətənpərvərlik mövzusunda musiqilər səsləndirildi.

Sonda şəhid mayor Namiq Əhmədovun xidmət müddətində layiq görüldüyü fəxri fərman və medallar tədbir iştirakçılarına nümayiş olundu, xatirə şəkli çəkdirildi.

Leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu"

Nümunəvi xidmət

"Şuşa işğaldan azad olunanda çox sevindim"

Vətən müharibəsi ordumuzun qələbəsi ilə başa çatdıqdan sonra ayağımız əbədi-əzəli yurd yerlərimiz olan Qarabağ torpağına dəydi. Bu anlarda üzümüzə təbəssüm qondu, ürəyimiz sevinclə doldu. Artıq neçənci dəfədir ki, işğaldan azad olunmuş ərazilərimizə gəlirəm. Hər dəfə də geriyə - ölkəmizin paytaxtına ürəyimdə qucaq-qucaq sevinc hisslərinə bürünmüş fikirlərlə dönürəm.

Yenə də Vətən müharibəsinin iştirakçısı olmuş və döyüşlərdə böyük zəfər qazanan hərbi qulluqçularımızla söhbət edirik. Onların şərəfli döyüş yollarını öyrənmək ovqatımıza ovqat qatır. Əsgər Elşad Səlimov da 44 gün davam edən Vətən müharibəsində əsgər kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib, döyüş tapşırığını şərəf və ləyaqətlə yerinə yetirib.

Öyrəndik ki, əsgər Elşad Səlimov ordu sıralarına ötən ilin iyulunda Göyçay rayonundan çağırılıb. Xidmətinin beş ayı tamam olar-olmaz erməni təxribatı nəticəsində Vətən müharibəsi başlayıb.

- Payız fəsli yenicə gəlmişdi, adi xidmət günlərimizdən birini yaşayırdıq, - deyə Elşad bizimlə söhbətə başladı. - Sentyabrın 27-də səhər-səhər eşitdiyimiz müharibə xəbəri xidmətimizi gündəlik çərçivəsindən çıxartdı. Yurdumuzu ermənilərdən müdafiə etmək üçün komandirlərimizin əmri ilə əks-həmlə əməliyyatlarına atıldıq. İlk döyüşümüz Suqovuşan istiqamətində oldu. İşğalçılar geri çəkilmək istəmir, ciddi müqavimət göstərirdilər. Amma biz nəyin bahasına olursa-olsun, qəsbkarları geri oturtmalı və yurdumuzu uzun illərin işğalından azad etməliydik. Buna görə də cəsarətlə, hünərlə vuruşurduq. Getdikcə zirehli texnikasını və canlı qüvvəsini itirən yağılar geri qaçırdılar. Artıq işğalçılar qarşımızda dayana bilmirdilər. Hücumlarımız getdikcə güclənirdi. Atəş səslərindən yer-göy lərzəyə gəlirdi. Təlim-məşqlərdə bilik və döyüş vərdişlərini mükəmməl mənimsədiyimizə görə əməliyyatlarda heç bir çətinlik çəkmirdik. Döyüş sənətinin sirlərinə dərindən yiyələndiyimizə görə əməliyyatlar zamanı düşməni sərrast atəşlə məhv edir, uğurlar qazanırdıq. Ermənilər uzun illərdən bəri işğalda saxladıqları torpaqlarımızdan geri çəkildilər. Suqovuşan yağılardan azad olunanda sevincim yerə-göyə sığmırdı. Əsgər dostlarımızla bir-birimizi qucaqlayıb qələbə münasibətilə təbrik edirdik. Hamımızın üzgözündən sevinc yağırdı. Ərazilərimiz erməni işğalçılarından bir-bir azad olunurdu. Azərbaycan Ordusu qələbələri ilə xalqımızı sevindirirdi. Davamlı olaraq illərdən bəri həsrətində olduğumuz Qarabağa doğru irəliləyirdik. Hər gün döyüşlərdə yeni uğurlar, yeni zəfərlər qazanırdıq. 44 gün davam edən Vətən müharibəsində sonadək vuruşdum. Ən çox sevindiyim gün Qarabağın tacı, musiqimizin beşiyi Şuşa şəhərinin qəsbkarlardan azad olunduğu gün oldu. Vətən müharibəsində iştirak etdiyimə görə qürur hissi keçirirəm. Zəfərlərlə dolu o günləri heç vaxt unutmayacağam.

Əsgər Elşad Səlimovun qardaşı Seymur da Vətən müharibəsinin davam etdiyi günlərdə - 2020-ci ilin oktyabrında gənc əsgər kimi ordu sıralarına çağırılıb. Hazırda xidmətini "N" hərbi hissəsində davam etdirir. Hər iki qardaş əsgər kimi üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

Əsgər Elşad Səlimov xidmətini yenə də uğurla davam etdirir. O, işğaldan azad edilmiş torpaqlarımızda xidmətindən çox qürurludur.

Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"

"Ermənistan tərəfi minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycan tərəfinə təqdim etməlidir"

Mən Azərbaycan xalqına və həlak olanların yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Bu sözləri Böyük Britaniya parlamentində Azərbaycan üzrə Qrupun sədri, deputat Bob Blekmən AZƏRTAC-ın müxbirinə verdiyi müsahibəsində deyib.

"İşğaldan azad olunmuş Kəlbəcər rayonunda ötən gün tank əleyhinə minanın partlaması nəticəsində ikisi jurnalist olmaqla, 3 nəfər mülki şəxsin həlak olması xəbəri məni dərindən kədərləndirib. Hərbi əməliyyatların sonlanmasına baxmayaraq hələ də insanların həyatını itirməsi üzücüdür. Gələcəkdə bu kimi insan itkisinin qarşısının alınması üçün Ermənistan tərəfi minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycan tərəfinə təqdim etməlidir", - deyə o əlavə edib.

Bob Blekmən, həmçinin bu kimi halların bölgədə davamlı sülhün bərqərar olunmasına maneə törətdiyini qeyd edərək beynəlxalq ictimaiyyətin baş verənlərə lazımi reaksiya verəcəyinə ümid etdiyini bildirib.

“Qələbəmizi şəhid və qazilərimizə həsr edirik”



Rəşadətli ordumuzun sıralarında xidmət edən yüzlərlə gənc hərbi xidməti ilə yanaşı, idman fəaliyyətini də yüksək səviyyədə davam etdirir, müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı nəticəsində bu gün müxtəlif idman növləri üzrə peşəkar idmançıların yetişdirilməsi üçün hər cür şəraitlə təmin olunan Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) fəaliyyət göstərir. 1961-ci ildə təsis edilən Mərkəzi Ordu İdman Klubu Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Müdafiə Nazirliyinin tərkibinə verilib. Yarandığı gündən bu günədək Mərkəzi Ordu İdman Klubu şərəfli yol keçib. İdmançılarımız Olimpiya oyunlarında, həmçinin Dünya və Avropa çempionatlarında iştirak edərək medallar qazanıblar. Qazanılan medalların sayına görə MOİK-in adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə fərqlənən idman klubları sırasında çəkilir. MOİK Azərbaycan Ordusunun beynəlxalq və respublika səviyyəli yarışlarda peşəkar səviyyədə təmsil edir, həmçinin gənclərin vətənpərvərlik hissinin və fiziki hazırlığının yüksəldilməsi məqsədilə müxtəlif idman növləri üzrə fəal iş aparır.

Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda (MOİK) bütün yaş qrupları üzrə 16 idman növündə məşqlər keçirilir. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun təmsilçiləridir. Olimpiya, Dünya, Avropa və başqa beynəlxaq yarışlarda qazanılan medalların da bir hissəsi MOİK-in idmançılarına məxsusdur. Həmçinin ölkədə və beynəlxalq səviyyəli yarışlarda uğurla çıxış edən MOİK-in yetirmələri Bakı-2017 İslam Həmrəyliyi Oyunlarında 1-ci yeri tutan Azərbaycan yığmasının qələbəsində də pay sahibi oldular. Onlar 2 qızıl, 1 gümüş və 1 bürünc olmaqla, komandamızın hesabına 4 medal qazandırdılar.

Klubun yetirmələri beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə etməyə davam edirlər. İdmançılar növbəti uğuru Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən 23 yaşadək güləşçilər arasında Avropa çempionatında qazanıblar. 36 ölkədən 425 idmançının iştirak etdiyi qitə birinciliyində Azərbaycan güləşçiləri uğurlu mübarizə apararaq 9 medal qazanıblar. Komandanın tərkibində yarışlara qatılan Mərkəzi Ordu İdman Klubunun iki idmançısı - əsgərlər Əliabbas Rzazadə və Orxan Abbasov çempionatı gümüş medalla başa vurublar.

İdmançılarla həmsöhbət olmaq, onların təəssüratlarını oxucularımızla bölüşmək üçün MOİK-ə üz tutduq. Mərkəzi Ordu İdman Klubunun rəhbəri polkovnik-leytenant Mənsur Nəcəfovla görüşdük. Klubun rəisi burada xidmət edən hərbi qulluqçular üçün hər cür şəraitin yaradıldığını bildirdi. Qeyd etdi ki, son illər klubda sürətlə yenidənqurma işləri aparılır, şəxsi heyətin idman fəaliyyətini peşəkarcasına davam etdirməsi üçün müasir avadanlıqlarla təchiz olunan idman zalları fəaliyyət göstərir. "Bunlarla yanaşı, peşəkar idman ustalarından ibarət məşqçi heyətimiz də idmançılarımızın hazırlanmasında əzmkarlıq nümayiş etdirirlər. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu idmanının inkişafına göstərdiyi böyük qayğı nəticəsində Azərbaycan idmançıları Beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər. Bu nailiyyətlər ordumuzun qüdrətini bir daha sübut edir, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığını göstərir".

MOİK-in rəhbəri ilə dialoqumuzu başa vurub, gəlişimizin əsas səbəbkarları ilə kəlmələşdik. Hər iki idmançı uğurlarından qürurla danışdı, göstərilən etimadı doğrultduqları üçün sevindiklərini dedi.

Avropa çempionatının gümüş mükafatçısı Əliabbas Rzazadə 1998-ci il mayın 21-də Astara rayonunun Rüdəkənar kəndində anadan olub. O, birinci sinfə Mirzə Ələkbər Sabir adına 1 saylı orta məktəbdə gedib. Həmyerlisi Cəbrayıl Həsənovun qazandığı nailiyyətlər onun idmana olan marağını daha da artırıb və 8 yaşında idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlayıb. O bir neçə dəfə Astara şəhərində və qonşu rayonlarda keçirilən yarışların qalibi olub. Əliabbasın idmanda parlaq gələcəyi olduğunu görən müəllimi Elçin Həmidov ona təhsilini "Respublika Olimpiya İdman Liseyin"də davam etdirməyi tövsiyə edir. 5-ci sinifdən həmin liseydə təhsilini davam etdirən idmançımız Allahverdi Vəliyevin rəhbərliyi altında sərbəst güləşlə məşğul olmağa başlayıb. İdmançımız, həmçinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının sərbəst güləş ixtisasını bitirib.

Əliabbas Rzazadə 2012-ci ildə yaşıdları arasında Respublika birincisi, 2016-cı ildə Azərbaycan çempionu, Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən gənclərin Avropa çempionatının üçüncüsü, Fransada keçirilən Dünya çempionatının üçüncüsü, 2018-ci ildə Azərbaycan çempionatının birincisi və həmin ildə İtaliyanın paytaxtı Roma şəhərində keçirilən Avropa çempionatının üçüncüsü olub.

Dünyada cərəyan edən COVID-19 pandemiyasına görə yarışlara ara verən idmançı cari ildə yenidən tatamiyə qayıdıb və Şimali Makedoniyanın paytaxtı Skopyedə 23 yaşadək güləşçilər arasında keçirilən Avropa çempionatında iştirak edib. Yarışın birinci günündə 57 kq çəki dərəcəsində tatamiyə çıxan güləşçimiz ilk mərhələni güləşmədən adlayıb. Buna səbəb yerli güləşçinin xalçaya çıxmaması olub. 1/4 finalda Türkiyə idmançısını vaxtından əvvəl üstələyən həmyerlimiz

yarımfinala yüksəlib. Əliabbas 2019-cu ildə Bakıda keçirilən Avropa Gənclər Olimpiya Festivalının qalibi olmuş İtaliya güləşçisini məğlub edərək finala yüksəlib. Həlledici görüşdə Rusiya təmsilçisinə uduzan Rzazadə yarışı gümüş medalla yekunlaşdırıb. Hərbi qulluqçu bildirdi ki, Müdafiə nazirinin əmrinə əsasən Azərbaycan Respublikasının sərbəst güləş üzrə yığma komandasının tərkibində məşq edirlər. "Yarışa çox yaxşı hazırlaşmışdıq. Əlbəttə, istəyərdim ki, birinci olum. Ancaq istək kifayət etmir, deməli, qismətimdə gümüş medal mükafatçısı olmaq var imiş. Finalda məğlubiyyətim ruh düşkünlüyü yaratmır. Çalışacağam ki, səhvlərimdən nəticə çıxarım. Bu dəfə alınmasa da, inşallah, hərbçilər arasında keçirilən növbəti Dünya çempionatının qalibi olacağam. Bir idmançı, bir hərbçi kimi bizim də vəzifə borcumuz Azərbaycan bayrağının dünyanın hər bir yerində dalğalandırılması, himnimizin səsləndirilməsi üçün qələbələr qazanmaqdır. Bu bizim üçün həm də böyük fəxrdir".

- Hər bir idmançı kimi mən də Olimpiya çempionu olmaq istəyirəm, - deyə Əliabbas Rzazadə sözünə davam etdi. - Bu, sadəcə tək-tək insanlara qismət olur. Həmyerlilərimizdən bir neçəsinə Olimpiya çempionu olmaq qismət olub. Həmişə onların hansı hissləri keçirdiyini bilmək istəmişəm. İnşallah, həmin hissləri yaşamaq mənə də nəsib olar. Məqsədimə çatdıqdan sonra gələcəkdə karyeramı məşqçi kimi davam etdirmək, ölkəmizə layiqli idmançılar yetişdirmək istəyirəm.

Digər idmançımız da Avropa çempionatının gümüş mükafatçısıdır. Güləşçimiz Orxan Abbasov 1998-ci il iyulun 16-da Bakı şəhərində anadan olub. İlk təhsilini Binəqədi rayon Sulutəpə qəsəbəsində alan Orxan uşaqlıqdan idmanla məşğul olub. O, idmançı atası Əhmədxan kişidən ilhamlanaraq, Ruslan Şəmilovun məşqçiliyi ilə idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlayıb. Ali təhsilini də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının sərbəst güləş ixtisası üzrə bitirib.

Artıq on bir ildir ki, idmanla məşğul olan Orxan Abbasov bu günə qədər 3 dəfə Dünya, bir dəfə isə Avropa üçüncüsü olub. Əsgər kimi qatıldığı sonuncu qitə çempionatında isə gümüş medal qazanıb. İdmançımız dəstəyi atasından aldığını deyərək, idmanın bu növünü seçməsindən danışdı. "İdmanın sərbəst güləş növünü seçməyim Olimpiya çempionumuz Namiq Abdullayevlə bağlıdır. Namiq Abdullayevi özümə qumir bilirəm. Ən böyük arzum onun kimi Olimpiya çempionu olmaq, adımı ölkəmizin idman tarixinə əbədi həkk etməkdir".

Turnirdən söhbət açan idmançı yarışa baş məşqçi Arif Abdullayevin rəhbərliyi ilə qatıldığını bildirdi. Tatami üzərinə 86 kq çəki dərəcəsində çıxan güləşçimiz ilk görüşdə İsrail, sonra Ukrayna, yarımfinalda isə Almaniya təmsilçilərinə qalib gəlib. Orxan final qarşılaşmasında rus idmançı ilə üz-üzə gəlib. Gərgin mübarizə əzmində keçən finalın sonunda kiçik xal fərqi ilə ikinci olub. Gələcək yarışlarda birinciliyi qarşısına məqsəd qoyan MOİK təmsilçisi gümüş medal qazananda sevincini ilk olaraq atası ilə bölüşdüyündən danışdı: "İdmançı kimi formalaşmağımda tatami üzərində müəllimlərimə, həyatda isə atama minnətdaram. Bu yolda atam mənəvi dəstəyini heç zaman əsirgəməyib, hər zaman yanımda olub, mənə müsbət əhval-ruhiyyə aşılayıb. Atamın mənə olan dəstəyi və inamı özgüvənimi və mübarizliyimi daha da artırıb. Məqsədim hər bir idmançı üçün ən yüksək zirvə olan Olimpiya çempionu olmaqdır. Durmadan öz üzərimdə çalışır, məqsədimə çatacağıma inanıram".

Hər iki idmançımız şanlı zəfərimizlə başa çatan Vətən müharibəsindən də söz açaraq döyüş meydanında olmaq arzularından danışdılar: "Döyüşlərdə biz də iştirak etmək istəyirdik, hər an komanda gözləyirdik. Orada döyüşən hər bir silahdaşımıza minnətdarıq, onlarla qürur duyuruq. Onların qanı bahasına Şuşada dalğalanan bayrağımızı biz də idman arenalarında dalğalandırmağa səy göstəririk. Qələbəmizi müqəddəs yolda şəhid və qazi olan qardaşlarımıza həsr edirik".

Kapitan
Ruslan HƏSƏNZADƏ
baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"

Naxçıvan Qarnizonunda hərbi qulluqçular arasında atletika və gimnastika üzrə birincilik keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Naxçıvan Qarnizonunda hərbi qulluqçular arasında atletika və gimnastika üzrə birincilik keçirilib. Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədi ilə keçirilən yarışda 16 komandadan 280 idmançı mübarizə aparıb.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə atlet və gimnastlar turnikdə dartınma və aşaraq dayağa qalxma, paralelqollarda dayaq vəziyyətində qolların bükülüb açılması, uzunluğa və hündürlüyə tullanma, 100 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı yarışlarında özlərini sınayıblar.

Ümumi nəticələrə əsasən komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci və 3-cü yerlərdə isə motoatıcılar qərarlaşıblar.

Birinciliyin nəticələrinə əsasən ilk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

Azad olunmuş ərazilərimizdə hərbi qulluqçularla keçirilən tədbirlər davam edir

2021-ci ilin fəaliyyət planına uyğun olaraq Azərbaycan Ordusunun hərbi qulluqçularının mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərmək, şəxsi heyətin ruh yüksəkliyini, döyüş əzmini artırmaq və asudə vaxtlarının səmərəli təşkili məqsədilə azad olunmuş ərazilərimizdə dislokasiya olunan bölmələrin şəxsi heyəti üçün keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar-təşviqat qruplarının Kəlbəcər rayonu ərazisində təşkil etdiyi tədbirlər zamanı müxtəlif yarışlar, oyunlar və viktorinalar keçirilib. Yarışlarda qalib olan əsgərlərə mükafatlar təqdim edilib.

"Əsgərə məktub" layihəsi çərçivəsində hərbi qulluqçulara çatdırılan məktublar onların böyük marağına səbəb olub. Hərbi qulluqçular məktub müəlliflərinə minnətdarlıqlarını bildiriblər.

Tədbirlərdə şəxsi heyətə maraqlı musiqi nömrələri təqdim olunub.

Hərbi texnikalar, silahlar

Pilotsuz Barkan aparatı

Yaxın vaxtlarda Türkiyənin Havelsan şirkəti tərəfindən hazırlanmış çoxməqsədli yerüstü, orta sinifli pilotsuz Barkan aparatının sınaqları başa çatdıqdan sonra türk qoşunlarının silahlanmasına daxil olacaq. Barkan "birinci dərəcəli və orta sinifli" yerüstü pilotsuzlar sisteminə aiddir.

Pilotsuz sistemlərin hazırlanması işinə iki il bundan qabaq başlanıb və bir sıra uğurlu sınaqları da həyata keçirilib. Barkan pilotsuz yerüstü aparatı qoşunlara dayaq durmaq, kəşfiyyat və müşahidə aparmaq üçün nəzərdə tutulub. Barkan aparatının yaradılmasında əsas məqsəd onun pilotsuz uçuş aparatları və digər pilotsuz yerüstü və idarəolunan aparatlarla qarşılıqlı əlaqəsini təmin etmək, həmçinin qoşunların səhra şəraitində fəaliyyətinin səmərəliliyini daha da artırmaqdır.

İstehsalçı sınaqlardan keçmək üçün Barkanın üç oxşarını da yaradıb. Silahlanmış Barkan aparatının çəkisi 500 kiloqramdır. Distansion idarəolunan SARP-L platforması dörd ədəd topu yeritmək üçün əlavə təkərlərlə təchiz olunub. Robot 5,56 və 7,62 mm-lik pulemyotları daşımaq imkanına malikdir. Onun atəşi idarəetmə sistemi özünə ballistik hesablayıcı və termal görüntülü elektro-optik stansiyanı daxil edir.

Barkandan başqa türk şirkəti ümumi platformada daha iki döyüş robotu buraxıb. Birincisi, elektrik naqilli pilotsuzudur. Onun çəkisi 300 kiloqramdır və sürəti saatda 7 kilometrə qədərdir. Kəşfiyyat aparmaq üçün nəzərdə tutulub. İkincisi, geniş kəşfiyyat aparmaq imkanlarına malikdir və onun qaldırıcı dirəyində müxtəlif müşahidə cihazları bərkidilib.

Hazırladı:
Svetlana YUSUBOVA
"Azərbaycan Ordusu"

İdman

Cüdoçumuz dünya çempionatında bürünc medal qazanıb

Budapeştdə cüdo üzrə dünya çempionatı davam edir.

Turnirdə cüdoçumuz Kəramət Hüseynov (60 kq) üçüncü yer uğrunda qazaxıstanlı Magzhan Şamsadini məğlub edərək bürünc medal qazanıb.

Qeyd edək ki, təmsilçimiz otuzikidəbir finalda Mohammad Raşnonezad (Beynəlxalq Cüdo Federasiyası), onaltıdabir finalda Nikolae Foça (Moldava), səkkizdəbir finalda Yaponiya təmsilçisi Ryuju Naqayamaya ilə qarşılaşmalarda qələbə qazansa da dörddəbir finalda fransalı Valide Xyara (FRA) məğlub olub. K.Hüseynov təsəlliverici görüşdə monqolustanlı Unubold Lxaqbayamtsa qalib gəlib.

Turnirin birinci günündə 4 cüdoçumuz mübarizə aparıb. Belə ki, Davud Məmmədsoy (60 kq) Romarik Vend-Yam Buda (Fransa), Leyla Əliyeva Rusiya təmsilçisi Sabina Gilyazovaya, Aişə Qurbanova (hər ikisi 48 kq) isə ispaniyalı Julia Fiqqueroaya start görüşündə məğlub olublar.

Tokio Olimpiadasına lisenziya xarakterli yarışa Azərbaycan 12 cüdoçu ilə qatılıb.

Güllə atıcımız Avropa çempionatında bürünc medala layiq görülüb

Xorvatiyanın Osiek şəhərində güllə atıcılığı üzrə keçirilən Avropa çempionatında Azərbaycanın güllə atıcısı uğurla çıxış edib.

Yığmamızın üzvü Ruslan Lunyov 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında 582 xal qazanaraq bürünc medal əldə edib.

Yığmamızın digər üzvü Nigar Bağırova pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçma yarışlarında 578 xalla 3-cü nəticə göstərərək 8 nəfərin yer aldığı finala vəsiqə qazansa da, finalda zəif çıxış etdiyinə görə mükafatçılar sırasına düşməyib.

Xatırladaq ki, Azərbaycanın güllə atıcısı Ruslan Lunyov İtaliyanın Bolonya şəhərində keçirilən qitə çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışının qalibi olmaqla "Tokio-2020" Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

Karateçimiz gənclərin Karate1 Liqa yarışında medal qazanıb

Uşaq, yeniyetmə və gənclərdən ibarət yığma komandalarımız Kiprin Limassol şəhərində gənclərin Karate1 Liqa yarışında uğurla çıxış ediblər.

16-17 yaşlı gənclər arasında keçirilən qarşılaşmalarda karateçilərimizdən Fərid Savadov (55 kq) qızıl, Nicat Kərimli (61 kq) bürünc medal qazanıblar.

Bundan əvvəl isə 14-15 yaşlı idmançılar arasında görüşlərdə karateçilərimizdən Salman Salmanov və Ramilə Heydərova (hər ikisi kata) bütün rəqiblərini üstələyərək qızıl medal əldə ediblər. Mehralı Məmmədov (+70 kiloqram) gümüş, Amin Yadigarlı (52 kq) və Aysu Əliyeva (47 kq) isə bürünc mükafata sahib olublar.

Dünya Karate Federasiyasının (WKF) rəsmi turnirlərindən olan yarışda Azərbaycanın 32 karateçisi iştirak edib. Turnirdə ümumilikdə 37 ölkədən 760 idmançı mübarizə aparır.

AZƏRTAC-ın
materialları əsasında

Baş redaktor vəzifəsini icra edən
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
kapitan
Ruslan HƏSƏNZADƏ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 312
Nüsxə 4050